

**Cavid Qənbər oğlu Qurbanov:**

19 sentyabr 1958-ci ildə Azərbaycan Respublikası Kəlbəcər rayonunun Ağdaban kəndində anadan olmuşdur.

1975-ci ildə Kəlbəcər rayon orta məktəbini bitirdikdən sonra 1975-1976-cı illərdə Kəlbəcər şəhərində elektroenergetika sahəsində çalışmışdır. 1977-ci ildə Azərbaycan İnşaat Mühəndisləri institutunun "Tikinti və yol maşınları avadanlıqları" fakültəsinə daxil olmuşdur.

1977-1979-cu illərdə ordu sıralarında hərbi xidmət etdikdən sonra 1979-cu ildə 26 Bakı Komissarları nəşriyyatında kuryer vəzifəsi ilə əmək fəaliyyətinə yenidən başlamışdır.

1980-1981-ci illərdə "Azəryollayihə" Layihə İnstitutunda texnik-cizgiçi, 1982-1987-ci illlərdə "Azərnəqliyyattikinti" Trestinin avtobazasında mexanik, baş mexanik, rəis müavini vəzifələrində çalışmışdır.

1985-ci ildə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunu bitirmişdir. 1987-1992-ci illərdə "Elektromexanizasiya" Trestinin 4 saylı Avtonəqliyyat Kontorunda direktor, 1992-1993-cü illərdə Respublika İxtisaslaşdırılmış "Avtonəqliyyat" Birliyində baş direktor, 1993-1994-cü illərdə "Azəravtoyol" Dövlət Şirkətində Prezident vəzifəsində işləmişdir.

Daha sonra isə 1995-ci ildə "Azərərzaqnəqliyyat" Birliyində direktor, 1996-1997-ci illərdə Azərbaycan Dövlət Dəmiryolu İdarəsinin Təchizat şöbəsində rəis, 1997-2001-ci illərdə "Azərdəmiryolservis" İstehsalat Birliyində rəis kimi çalışmışdır.

2003-cü ildən "Yolnəqliyyatservis" Departamentinin rəisi, 2004-cü ildən Nəqliyyat Nazirliyi "Yolnəqliyyatservis" Məhdud Məsuliyyətli Cəmiyyətinin rəisi vəzifələrində çalışmışdır.

Yüksək elmi biliyə malik olduğundan qısa zaman kəsiyində həyata keçirdiyi keyfiyyətli işlərinə, xalqlar arasında, xüsusilə yol isçiləri ilə müsbət dostluq əlaqəsi yaratdığına görə 11 dekabr 2007-ci ildə Moskva şəhərində keçirilən Müstəqil Dövlətlər Birliyi Yol İşçilərinin Hökumətlərarası II Qurultayında Yol İşcilərinin Dövlətlərarası Şurasının sədri seçilmişdir.

Rus dilinde "Истоки и создатели дорог – Енсиклопедия Азербайджана"nın ilk yaradıcısıdır.

2007-ci ilin fevral ayından "Yolnəqliyyatservis" Departamenti "Azəryolservis" Açıq Səhmdar Cəmiyyəti olduqdan sonra "Azəryolservis" ASC-nin sədri kimi fəaliyyət göstərib və 2015-ci ilə qədər bu vəzifədə çalışıb.

2015-ci ildən Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin müvafiq sərəncamı ilə Azərbaycan Dövlət Dəmir Yolu İdarəsinin rəisi təyin olunub.

Texniki elmlər namizədidir.

123 saylı Kəlbəcər Seçki Dairəsindən III və IV çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilib və Milli Məclisin İqtisadi Siyasət daimi Komitəsinin üzvüdür.

Yeni Azərbaycan Partiyasının üzvüdür.